# AZƏRBAYCAN RESPUBLİKASININ
# SƏHİYYƏ NAZİRİ

## Ə M R

№ 08

**Bakı şəhəri** "12" yanvar 2011-ci il

**"2011-2015-ci illər üçün qanın, qan komponentlərinin donorluğu və qan xidmətinin inkişafına dair Tədbirlər Proqramı"nın həyata keçirilməsi barədə"**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 13 dekabr 2010-cu il tarixli 233 nömrəli "2011-2015-ci illər üçün qanın, qan komponentlərinin donorluğu və qan xdmətinin inkişafına dair Tədbirlər Proqramı"nın təsdiq edilməsi haqqında Qərarının həyata keçirilməsini təmin etmək məqsədi ilə

**ƏMR EDİRƏM:**

1. "2011-2015-ci illər üçün qanın, qan komponentlərinin donorluğu və qan xidmətinin inkişafına dair Tədbirlər Proqramı"nın icrası üçün Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Tədbirlər Planı təsdiq edilsin (əlavə olunur).

2. Respublikanın səhiyyə idarə və müəssisələrinin rəhbərlərinə tapşırılsın ki, adı çəkilən Tədbirlər Planında nəzərdə tutulan tədbirlərin vaxtında və keyfiyyətli həyata keçirilməsi təmin edilsin və görülən işlər barədə hər yarımilliyin sonunda Səhiyyə Nazirliyinə məlumat təqdim edilsin.

3. Maliyyə-iqtisadiyyat şöbəsinə tapşırılsın ki, illik büdcə sifarişlərində "2011-2015-ci illər üçün qanın, qan komponentlərinin donorluğu və qan xidmətinin inkişafına dair Tədbirlər Proqramı"nın reallaşması üçün tələb olunan vəsaitin nəzərdə tutulması təmin edilsin.

4. Əmrin icrasına nəzarət Nazir müavinlərinə həvalə edilsin.

**Oqtay Şirəliyev**

Azərbaycan Respublikası Səhiyyə
Nazirliyinin 11.01.2011 tarixli 08
nömrəli əmri ilə təsdiq edilmişdir

## "2011-2015-ci illər üçün qanın, qan komponentlərinin donorluğu və qan xidmətinin inkişafına dair Tədbirlər Proqramı"nın icrası üçün Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin

## Tədbirlər Planı

| | Tədbirlərin adı | Məsul icraçı | İcra müddəti | Tərəfdaş qurumlar |
|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 |
| **1. Qanın və qan komponentlərinin donorluğunun təbliği** | | | | |
| 1.1. | İdarə və təşkilatlarda donorluq aksiyalarının təşkil edilməsi | ETHvəTİ, yerli tibb idarə və müəssisələri | mütəmadi | Qan donorları assosiasiyası |
| 1.2. | Qan və qan komponentləri donorluğuna dair populyar kitabçaların, bukletlərin, vərəqələrin, plakatların çap edilməsi | ETHvəTİ, İSİM | 2011-2015 | Qan donorları assosiasiyası |
| 1.3. | Kütləvi informasiya vasitələri ilə qan donorluğuna dair məlumatların verilməsi | Mətbuat xidməti, ETHvəTİ | mütəmadi | "Azərbaycan Televiziya və Radio Verilişləri" QSC |
| 1.4. | Qan və qan komponentlərinin tədarükünə, təhlükəsizliyinə və köçürülməsinə dair təlimatların və elmi ədəbiyyatın hazırlanması | ETHvəTİ | 2011-2015 | |
| **2. Qan xidməti müəssisələrinin fəaliyyətinin təkmilləşdirilməsi** | | | | |
| 2.1. | Qan xidməti müəssisələrinin maddi-texniki təchizatının yaxşılaşdırılması, müasir avadanlıq və ləvazimatlarla təmin edilməsi | İ və TM, ETHvəTİ | 2011-2015 | |
| 2.2. | Səyyar şəraitdə qan tədarükünün həyata keçirilməsi məqsədi ilə Mərkəzi Qan Bankının xüsusiləşdirilmiş avtonəqliyyatla təmin edilməsi | İ və TM | 2011 | |
| 2.3. | Qan xidməti müəssisələrinin kompüterləşdirilməsi və respublikada qan donorları, qan və onun komponentlərinin ehtiyatı barədə məlumatların təmin edilməsi məqsədi ilə kompüter şəbəkəsinin yaradılması | SİM, ETHvəTİ | 2011-2012 | |

| 1 | 2 | 3 | 4 | 5 |
|---|---|---|---|---|
| 2.3.1. | Qan və qan komponentlərin tədarükünə və istifadəsinə monitorinqinin təmin edilməsi məqsədilə kompüter proqramının hazırlanması və tətbiq edilməsi | TYTŞ, SİM, ETHvəTİ | 2011-2012 | |
| 2.4. | Regional qan bölmələrinin fəaliyyətinin yaxşılaşdırılması məqsədilə köməklik göstərilməsi və bu işə nəzarətin təmin edilməsi | ETHvəTİ | 2011-2012 | |
| **3. Qanın və qan komponentlərinin təhlükəsizliyinin təmin edilməsi** | | | | |
| 3.1. | Tədarük edilən qanın təhlükəsizliyini təmin edən müasir texnologiyaların (NAT texnologiyası, plazmanın virusinaktivasiyası, donor qanının tam avtomatik müayinəsi ) tətbiq edilməsi | ETHvəTİ | Mütəmadi | |
| **4. Təbii fəlakət, qəza və digər fövqəladə vəziyyətlər zamanı zərərçəkənlərin qan və qanın komponentləri ilə təminatı** | | | | |
| 4.1. | Təbii fəlakət, qəza və digər fövqəladə hallar zamanı zərərçəkənlərin qan və qanın komponentləri ilə təminatı üçün lazımi ehtiyatların yaradılması (qan torbaları, müvafiq reaktivlər, qanəvəzedicilər, qanköçürmə sistemləri və s.) | İ və TM, ETHvəTİ | Mütəmadi | Fövqəladə Hallar Nazirliyi |
| **5. Kadr hazırlığı** | | | | |
| 5.1. | Qan xidməti və transfuziologiya üzrə mütəxəssislərin hazırlanması (o cümlədən, xarici ölkələrdə) | KETŞ, BƏŞ, ADHTİ, ETHvəTİ | 2011-2015 | |
| 5.2. | Qan xidməti və transfuziologiya üzrə mütəxəssislərin beynəlxalq konqres, konfrans və simpoziumlarda iştirakının təmin edilməsi | KETŞ, BƏŞ | 2011-2015 | |